**Azərbaycan Respublikası Təhsil Nazirliyi**
**Bakı Dövlət Universiteti**

*Əlyazması hüququnda*

**RƏNA ALİM QIZI MİRZƏYEVA**

# AZƏRBAYCAN TELEMƏKANINDA İNFORMASİYA PROQRAMLARININ YARADICILIQ ÖZƏLLİKLƏRİ

5720.01- "Jurnalistika

filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın

**A V T O R E F E R A T I**

**BAKI- 2015**

Dissertasiya işi Bakı Dövlət Universiteti Jurnalistika fakültəsi Televiziya və Radio Jurnalistikası kafedrasında yerinə yetirilmişdir.

| | |
|---|---|
| Elmi rəhbər: | ***Cahangir Əbdüləli oğlu Məmmədov***<br>filologiya üzrə elmlər doktoru,<br>professor |
| Rəsmi opponentlər: | ***Nəsir Abbas oğlu Əhmədli***<br>filologiya üzrə elmlər doktoru,<br>professor<br>***Rövşən Raqif oğlu Məmmədov***<br>filologiya üzrə fəlsəfə doktoru |
| ***Aparıcı müəssisə***: | Azərbaycan Dövlət Pedaqoji Universitetinin Azərbaycan ədəbiyyatı tarixi kafedrası |

Müdafiə "22 " __01__ 2016-ci il saat _____da Bakı Dövlət Universiteti nəzdində filologiya üzrə elmlər doktoru və fəlsəfə doktoru dissertesiyalarının müdafiəsini keçirən D.02.181 Dissertesiya Şurasının iclasında keçiriləcək.

Ünvan: AZ 1148, Bakı, Z. Xəlilov küçəsi 23, Bakı Dövlət Universiteti, əsas bina, II mərtəbə, Videokonfrans otağı

Dissertasiya ilə Bakı Dövlət Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferat " "______ 2015-ci ildə göndərilmişdir.

H12D.02.181 Dissertasiya
Şurasının elmi katibi, filologiya üzrə
elmlər doktoru, professor: ***T.H.Hüseynov***

## İşin ümumi səciyyəsi

**Mövzunun aktuallığı**: Azərbaycan televiziya məkanında, artıq xeyli vaxtdan bəri formalaşmış televiziyaların tipoloji xarakteri çərçivəsində müxtəlif formatlı, müxtəlif səpkili xəbər proqramları mövcuddur. Azərbaycanın ilk televiziya kanalı olan Az.TV-nin məktəbindən yaranmış çoxçeşidli TV informasiya proqramları bu gün öz fəaliyyətləri ilə cəmiyyətə günün hadisələri fonunda bilgilər vermək-cəmiyyəti bilgiləndirmək sahəsində xeyli təcrübə qazanmışlar. AzTV-nin bu gün efirdə olan "Xəbərlər"i, İctimai televiziyanın "Carçı"sı, ANS TV-nin "Xəbərçi"si, ATV-nin "ATV-Xəbər"i, Lider TV-nin "Səda"sı, Space TV-nin "Bu Gün"ü, Xəzər TV-nin "Xəzər-xəbər"i və s. İnformasiya proqramlarının fəaliyyətində bir sıra yeni yaradıcılıq aspektləri özünü göstərməkdədir və bu tendensiya getdikcə inkişaf etməkdədir.

Ölkəmizin media mühitində TV kanalların sürətlə inkişafı və bu inkişaf prosesində informasiya proqramlarının xüsusi çəkisi «Azərbaycan teleməkanında informasiya proqramlarının yaradıcılıq özəllikləri» kimi bir araşdırmanın aktuallığını əsaslandıran ilkin şərtlərdən biridir. Digər tərəfdən, ölkə telekanallarının informasiya təqdimetmə prinsiplərindəki özünəməxsusluğu və bu cəhətin araşdırılmasının praktik telejurnalistikaya müsbət təsiri mövzunun aktuallığını şərtləndirir. Mövzunun aktuallığını şərtləndirən digər əsas faktorlardan biri də ölkə televiziyalarının beynəlxalq aləmdəki telekanalların informasiya proqramlarına xas olan standartlara yaradıcı münasibət hadisəsidir.

Beləliklə, tədqiq etdiyimiz «Azərbaycan teleməkanında informasiya proqramlarının yaradıcılıq özəllikləri» mövzusu qeyd olunan üç əsas göstərici və daha bir çox digər faktları ilə olduqca aktual sayıla bilər.

**Tədqiqatın məqsədi və vəzifələri.** Tədqiqat Azərbaycan teleməkanında informasiya proqramlarının yaradıcılıq prinsiplərinə kompleks şəkildə yanaşır. Buna görədir ki, televiziyada xəbər və bu xəbərin təqdimat prinsiplərini araşdırmaq, ayrı-ayrı tipoloji xarakterə malik televiziya xəbər proqramlarının mahiyyətini açmaq, bu mahiyyəti doğuran səbəbləri təhlil etmək, müxtəlif televiziyaların informasiya proqramlarının səmərəlilik koofisiyentini müəyyənləşdirmək, bu sahədə qazanılmış yaradıcılıq uğurlarını göstərmək, uğursuz addımların həm cəmiyyətə, həm də telekanalın özünə – reytinqinə vurduğu ziyanı izah etmək və s. məsələlər işin əsas məqsədləri sırasındadır. Televiziya informasiya proqramlarının tarixi inkişaf mərhələlərindən tutmuş bugünkü səviyyəsinə qədər bir çox məqamların təhlili, informasiya proqramlarının yaradıcılıq özəlliklərinin araşdırılması tədqiqatın əsas məqsədidir. Fikrimizi



ümumiləşdirərək deyə bilərik ki, araşdırmanın əsas məqsədi aşağıdakılardan ibarətdir:

1. Azərbaycan nəzəri ədəbiyyatında televiziyanın ilkin çağlarının informasiya proqramlarına elmi münasibəti ümumiləşdirmək;
2. Sovet ideoloji televiziya sistemində Azərbaycan televiziyası informasiya proqramlarının tarixi fəaliyyətinə nəzər salmaq və yenidənqurma dövrünün müstəqilliyə aparan çağlarında televiziya informasiya proqramlarının xüsusiyyətlərini araşdırmaq;
3. Azərbaycanın müstəqillik dövründə milli teleməkandakı informasiya proqramlarının əsas tematikasını və informasiya proqramlarının özəlliklərini təhlilə cəlb etmək;
4. Yeni dönəm jurnalistikasında televiziya informasiya proqramlarının xüsusiyyətlərini açmaq;
5. Özəl telekanalların informasiya siyasətini aydınlaşdırmaq;
6. Törəmə informasiya proqramlarını şərtləndirən amilləri nəzərdən keçirmək və s.

**Problemin öyrənilmə səviyyəsi.** Azərbaycan teleməkanında informasiya proqramları və onların özəllikləri ətrafında kompleks tədqiqat əlimizdəki dissertasiyada ilk dəfə tədqiqata cəlb edilsə də, ümumiyyətlə telexəbər, teleinformasiya barədə, bu anlayışların təhlili ətrafında indiyədək bəzi araşdırmalar aparılmışdır. Azərbaycanda televiziyanın yaranma tarixinin 1956-cı ildən başladığını və ölkədə sovet rejimi dövründə mətbuatın özəl sektorunun olmamasını, bu sahədə qanunvericiliyin qeyri-mövcudluğunu nəzərə alsaq, 1990-cı illərin əvvəllərinədək cəmi bir kanalın – dövlət televiziyasının fəaliyyətdə olması yalnız onun ətrafında bəzi nəzəri ədəbiyyatın mövcudluğu barədə danışmaq olar. Müstəqillik dövründə Azərbaycanda televiziya kanallarının artması ilə bütövlükdə televiziya və ayrıca olaraq onun informasiya proqramları ətrafında da bir sıra elmi-nəzəri ədəbiyyat meydana gəlmişdir.[1] Həmin əsərlərin hər birində bu və ya digər dərəcədə televiziyanın informasiya proqramları barədə bəzi nəzəri müddəalar yer almışdır. O cümlədən bir sıra xarici jurnalistika mütəxəssisləri də TV informasiya proqramları barədə nəzəri

[1] Mehdi F. Televiziya jurnalistikası. «Jurnalistika məsələləri», kitabında. «Maarif» nəşriyyatı, 1972; Quliyev E. Televiziya iki əsrin astanasında. Bakı, 1993; Məmmədov Z. Danışan güzgünün sirri. Bakı, 1985 və s. Məhərrəmov Q. Televiziya haqqında etüdlər. Bakı, 1996; Məhərrəmov Q. Televiziya nitqi və ədəbi tələffüz. Bakı, 1999; Məhərrəmli Q. Televiziya jurnalistikasının əsasları. Bakı, 2005; Məhərrəmli Q. Televiziya dili. Bakı, 2002; Məhərrəmli Q. İctimai televiziya. Bakı, 2003; Quliyev N. Televiziya: nəzəriyyə, inkişaf meylləri. Bakı, 2004; Əlibəyli E. Azərbaycan televiziyası. Bakı, 2005; Qafarlı Ə. Televiziya jurnalistikasının əsasları. Bakı, 2009; Məmmədli Z. A-dan Z-yə telexəbər. Bakı, 2009; Məmmədli C. Jurnalistikanın nəzəriyyəsi və təcrübəsi. Bakı, 2013; Əlibəyli E. Televiziya nəzəriyyəsinin əsasları. Bakı, 2011; Televiziya və radio proqramları yaratmağın etik meyarları. Bakı, 1999 və s.

tədqiqatlar üzərində qismən dayanmışlar.[1]

**Tədqiqatın elmi yeniliyi:** Müdafiəyə təqdim olunan dissertasiyanın elmi yeniliyi Azərbaycanda televiziya informasiya proqramlarının həm tarixi inkişaf mərhələlərindəki, həm də müasir dövrdəki yaradıcılıq özəlliklərini kompleks şəkildə tədqiqi ilə bağlıdır. Bütövlükdə jurnalistikanın, eləcə də televiziya xəbərlərinin beynəlxalq aləmdə qəbul olunmuş bir sıra yaradıcılıq prinsiplərinin – dəqiqlik, qərəzsizlik, balanslılıq, vicdanlılıq, ədalətlilik kimi peşəkarlıq göstəricilərinin necə tətbiq olunduğunun təhlilə cəlb edilməsi və bütün bunların elmi-nəzəri əsaslarının ümumiləşdirilməsi Azərbaycan media nəzəriyyəsi sahəsində tamamilə yeni bir istiqamətdir. Televiziya informasiya proqramlarının tətbiq olunan formatları, informasiya və hadisələrin janr politrası, xüsusilə prioritet xəbərlərin doğurduğu **törəmə** informasiya proqramları haqqında elmi araşdırmalar öz yeniliyi ilə diqqət çəkir.

Tədqiqatda televiziyalarin informasiya proqramlarında hadisələrin təqdim olunduğu çərçivənin janr və format ölçüləri barədə təhlillər də yenidir. Formatmı, janrmı? sualına elmi-nəzəri cavaba cəhdləri də tədqiqatın yeniliyi kimi qəbul etmək olar. Yuxarıda qeyd etdiyimiz törəmə informasiya proqramları indi xeyli dərəcədə Azərbaycan telemühitinə aiddir və bu mühit də maraqlı yaradıcılıq özəlliyi kimi özünü göstərməkdədir. Təkcə ölkədə informasiya proqramları sahəsində öz yaradıcı təxəyyülünü nümayiş etdirən ANS telekanalının ana xəbər – «Xəbərçi»dən doğan «Düzbucaq», «İti bucaq», "Hesab vaxtı", "Şou biz", "İç xəbər", «Kriminal» və s. törəmə proqramların təhlili və bu təhlillərdən alınan nəzəri məsələlər ilk dəfə bu dissertasiyada özünü göstərir.

Əlbəttə, dissertasiyada gündəlik informasiya mühitindən doğan və hər həftənin bazar günləri efirə çıxan analitik informasiya proqramlarının təhlili də tədqiqatın yeniliyi sayıla bilər. Dissertasiya informasiya proqramlarının, məsələn, AzTV-də "Həftə", ANS-də «Hesabat», İTV-də «Aktual», "Space"də "Hər həftə" və s. kimi formatların da məhz informasiyadan doğduğunun elmi əsaslarını yeni nəzəri araşdırmada təqdim edir.

---

[1] Цвик В.Л. Телевизионная журналистика. М., «Аспект-пресс», 2004; Рабигер М. Работа телерепортёра служба новостей. М., 1991; Борецкий Р.А. Осторожно, телевидение! М., Изд.-во «Икар», 2002; Беседы об истории телевидения. М., Изд.-во «Икар», 2011; Багиров Э. Очерки теории телевидения. М., «Искусство» 1978; Место телевидения в системе средств массовой информации и пропоганды, М., МГУ, 1976; Голядкин Н.А. ТВ информация В США. М., 1999; Голядкин Н.А. Телевидение США. М., 1986; Андуранс Е.Ч. Информационная элита: Корпорации и рынок новостей. Изд.-то МГУ, 1992 (212стр.) Браун Д.Р., Файерстоун Ч.М., Мицкевира Э. Теле- и радионовости. М., Интерпракс, 1994 (184стр.) Коменруд Р., Нельсон Р.П. Как преподносить новости. М., Виоланта, 1998 (224стр) və s.



**Tədqiqatın obyekti və metodoloji əsasları:** Tədqiqatın obyekti Azərbaycan media məkanındakı televiziya kanallarının informasiya proqramları təşkil edir. Azərbaycan telekanalları sistemində özünü göstərən – AzTV-də «Xəbərlər», İTV-də «Carçı», ANS-də «Xəbərçi», «Space»də «Hər gün», ATV-də «ATV-Xəbər», Xəzər TV-də «Xəzər-Xəbər», Lider TV-də "Səda" kimi informasiya proqramlarının fəaliyyəti tədqiqatın əsas obyektləridir. Əlbəttə, müqayisəli təhlil prosesində bir sıra xarici telekanalların da informasiya təqdimatındakı iş prinsipləri araşdırmanın köməkçi obyektləri sayıla bilər.

Dissertasiyada metodoloji əsas kimi müqayisəli təhlillər və illüstrativ materiallara müraciət əsas götürülür. Əsas metodoloji yanaşmalardan biri tədqiqatda aparılan polemika ilə bağlıdır. Digər tərəfdən, müəllifin şəxsi müddəaları dünyanın bir çox televiziya nəzəriyyəçilərinin fikirləri ilə əsaslandırılır. Dissertasiyada problemə kompleks yanaşma tərzi də onun metodoloji faktorlarından biri kimi qəbul oluna bilər.

**Dissertasiyanın nəzəri və təcrübi əhəmiyyəti.** Dissertasiya Azərbaycan teleməkanında informasiya proqramlarının yaradıcılıq özəllikləri kimi konkret bir mövzunu tədqiq etsə də, burada xeyli dərəcədə telejurnalistikanın nəzəri məsələləri də yer alır. Ona görə də telejurnalistikanın bir sıra nəzəri modellərinin meydana çıxmasında əsas rollardan birini oynayan informasiya proqramları və onlara elmi münasibətdən doğan nəzəri məsələlər bir neçə istiqamətdə əhəmiyyətli ola bilər. Birincisi, çoxsaylı telekanalların informasiya proqramlarının yaradıcılıq özəlliklərinin təhlili telekanalın proqram siyasətini aydınlaşdırır; ikincisi, bu təhlillər hər bir kanalın tipoloji xarakterini və informasiya siyasətini izah etməyə kömək göstərir; üçüncüsü, bu təhlillər peşəkar telereportyorların sənətkarlıq səviyyəsinin yüksəlməsinə kömək edir; dördüncüsü, alınan nəzəri müddəalar jurnalistika təhsili sistemində tətbiq edilir.

Tədqiqatın əsas təcrübi əhəmiyyəti isə ayrı-ayrı telekanalların informasiya proqramlarındakı yaradıcılıq özəlliklərinin ümumiləşdirilməsi və bundan doğan yeni nəzəri konsepsiyanın praktikaya tətbiqi ilə izah edilə bilər.

**Dissertasiyanın aprobasiyası.** Tədqiqat zamanı Azərbaycanın bir sıra önəmli telekanallarının informasiya proqramlarının ənənəsi və müasir yaradıcılıq özəllikləri xüsusi illüstrativ material rolunu oynamışdır. Dissertasiyanın əsas məzmunu müəllifin məqalələrində və konfrans materiallarında öz əksini tapmışdır.

**Dissertasiyanın quruluşu.** Dissertasiya giriş, üç fəsil, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir. Bu quruluş tədqiqatda qarşıya qoyulan əsas məqsədin gerçəkləşməsinə şərait yaradır.

## Dissertasiyanın əsas məzmunu

Dissertasiyanın I fəsli **"Azərbaycanda televiziya fəaliyyətinin ilkin mərhələsindən müstəqillik dövrünə qədərki informasiya proqramları"** adlanır.

Üç mühüm bölmədən ibarət olan I fəslin birinci bölməsi **"Azərbaycan nəzəri ədəbiyyatında televiziyanın ilkin çağlarının informasiya proqramlarına elmi münasibət"** kimi vacib bir problemi araşdırır. Belə bir məsələ xüsusi qeyd edilir ki, televiziya informasiya proqramlarına elmi yanaşma ilə bağlı məsələyə dissertasiyada yalnız Azərbaycan alimlərinin deyil, habelə bir sıra xarici ölkə alimlərinin əsərləri ətrafında da dayanmalı olmuşuq. Ona görə ki, televiziyanin yaranması və inkişaf tarixi ilə bağlı istər beynəlxalq məkanda, istərsə də ayrı-ayrı ölkələrdə maraqlı tədqiqat işləri aparılmışdır.

Bu barədə Türkiyə jurnalistika nəzəriyyəçilərindən Oya Tokgözün[1], Bülent Küçükerdoğanın[2], Metin İşıkın[3], Alemdar Korkmazın[4], Avçı Adnanın[5] və digər bir çoxlarının, Rusiya teleradio tədiqatçılarından Ə.Bağırovun[6], R.Boretskinin[7], A.Yurovskinin, V.Svikin[8], Q.Vaçnadzenin[9], M.Rabiqerin[10] və başqalarının, Azərbaycan teleradio nəzəriyyəçilərindən E.Quliyevin [11], F.Mehdinin [12], Q.Məhərrəmlinin [13], Y.Əlizadənin[14], Z.Məmmədlinin[15] və digərlərinin əsərləri bu sahədə maraqlı, fundamental nümunələrdir.

---

1 Oya Tökgöz. Temel Qazeteçilik. İmge Kitabevi. Ankara, 1994; Türkiye və Otradoğu Ülkelerinde Radyo ve Televizyon Sistemleri, Ankara 1972

2 Bülent Küçükerdoğan. Televizyon ve… Utopya Yayınevi, Ankara, 2009

3 Metin İşık. Dünya ve Türkiye Bağlamında Kitle İletişim Sistemleri. Egitim Kitabevi yayınları, Konya, 2007

4 Alemdar Korkmaz. Türkiyede Çağdaş Haberleşmenin Tarihsel Kökenleri. A.İ.-İ.A.Yayınları, Ankara, 2009

5 Avçı Adnan. Basın-Yayın ve Radyo ve Televizyon İşletmeleri Mövzuatı. Alfa Basın Yayım, İstambul, 2008

6 Багиров Э. Очерки теории телевидения. М., «Искусство» 1978; Место телевидения в системе средств массовой информации и пропоганды, М., МГУ, 1976

7 Борецкий Р.А. Осторожно, телевидение! М., Изд.-во «Икар», 2002; Беседы об истории телевидения. М., Изд.-во «Икар», 2011

8 Цвик В.Л. Телевизионная журналистика. М., «Аспект-пресс», 2004

9 Вачнадзе Г. Всемирное телевидение. Тбилиси, 1989

10 Рабигер М. Работа телерепортёра служба новостей. М., 1991

11 Quliyev E. Televiziya iki əsrin ayrıcında. Bakı, «İşıq», 1993; Televiziya: nəzəriyyə, inkişaf meylləri. Bakı, «Şərq-Qərb», 2004

12 Mehdi F. Televiziya jurnalistikası. «Jurnalistika məsələləri», Bakı, «Maarif», 1972

13 Məhərrəmli Q. Televiziya haqqında etüdlər. Bakı, «Təhsil», 1996

14 Əlizadə Y., Məhərrəmli Q. Azərbaycan efiri: tarix və müasirlik. Bakı, «Nurlan», 2006

15 Məmmədli Z.A-dan Z-yə telexəbər. Bakı, 2009



Azərbaycanda da televiziyanın yaranması və televiziyanın xəbər proqramlarının formalaşma tarixi barədə müəyyən qədər araşdırma aparılmışdır. Uzun müddət Azərbaycan televiziyasında rəhbər vəzifələrdə çalışmış Elşad Quliyevin, professor Yalçın Əlizadənin, professor Qulu Məhərrəmlinin, Elçin Əlibəylinin, Ənvər Qafarlının və digərlərinin televiziyaya dair müxtəlif tematikalı tədqiqatlarında milli televiziyada telexəbər proqramlarının formalaşma mərhələləri də araşdırılmışdır. Ona görə də həmin əsərlərə dissertasiyada münasibət bildirilmişdir.

Yalçın Əlizadə və Qulu Məhərrəmlinin birgə yazdıqları «Azərbaycan efiri: tarix və müasirlik» əsəri bu mənada daha çox informasiya verir.

Əlbəttə, Y.Əlizadə və Q.Məhərrəmli ilk növbədə Azərbaycan televiziyasının bütövlükdə meydana gəlməsi və inkişaf mərhələlərini araşdırmışlar.

Televiziyanın müxtəlif istiqamətləri üzrə tədqiqat aparan Elçin Əlibəylinin də əsrlərində telekanalların informasiya proqramlarının tarixi formalaşma prosesinin mərhələləri barədə geniş məlumat var.

Bu tədqiqatlar, əsasən, iki hissəyə ayrılır:

1. Azərbaycan televiziyasının ideoloji, təbliğati, dövlətçilik mahiyyətini anlayan və onun xəbər proqramlarına bu istiqamətdən yanaşanlar.

2. Azərbaycan televiziyasının tipoloji xarakterinə məhəl qoymadan onun xəbərlər proqramının həm tarixi, həm də müasir fəaliyyətinə maksimalist, hətta radikal, bir az da dərinə getsək, müxalif mövqedən baxanlar.

Əlbəttə, biz nə birincilərə nə də ikincilərə haqq qazandırırıq. Lakin nəzərə alanda ki, Az.TV bütün fəaliyyəti boyu peşəkarlıqdan daha çox ideoloji və təbliğati xəbərlərə üstünlük vermişdir, onda birincilərin daha obyektiv olmaları fikrinə gəlmək olar.

Yuxarıda da qeyd etdiyimiz kimi, televiziya informasiya proqramları öz vacibliyinə görə proqram cədvəlində mühüm yer tutur. Professor Q.Məhərrəmli tədqiqatlarından birində göstərir ki, "ictimai-siyasi verlişlərə aid olan bu növ proqramlar ölkədə və dünyada baş verən ən mühüm yenilikləri əks etdirən yayım növü kimi sosial əhəmiyyətinə görə televiziyanın ümumi proqramları sırasında əsas yer tutur".[1] Məhz buna görədir ki, televiziya nəzəriyyəsindən bəhs edərkən informasiya proqramlarından yan keçmək mümkün deyil. Ona görə də yuxarıda haqqında bəhs etdiyimiz əsərlərin, demək olar ki, hamısında, bu və ya digər cəhətdən TV informasiya proqramlarının kontent-analizi ilə birgə onla-

---

1 Məhərrəmli Q. Televiziya jurnalistikasının əsasları. Bakı, Bakı Universiteti, 2005, səh. 81, 144 s

rın yaranma, formalaşma tarixinə də nəzər yetirilmişdir. Bu mənada yenə də professor E.Əlibəylinin "Televiziya nəzəriyyəsinin əsasları" adlı fundamental əsərinə diqqət yetirmək lazım gəlir. Tədqiqatda, demək olar ki, ölkədə fəaliyyət göstərən, ümumrespublika yayım statusuna malik bütün telekanalların informasiya proqramları ətrafında maraqlı təhlillər aparılmışdır.

Beləliklə, deyə bilərik ki, Azərbaycan telekanallarının istər nəzəri, istərsə də digər problemlərinə dair elmi əsərlərin bir çoxunda informasiya proqramlarının yaranması və inkişaf mərhələlərinə dair müəyyən tədqiqatlar mövcuddur. Bu proqramların tam formalaşma mənbələri barədə növbəti bölmədə geniş söhbət açılır.

I fəslin ikinci bölməsi **"Azərbaycanda televiziya informasiya proqramlarının formalaşma mərhələləri"** adlanır. Bu bölmədə ilk növbədə SSRİ teleməkanı sistemində fəaliyyət göstərən Azərbaycan televiziyasında xəbər proqramlarının ideoloji xarakteri, bu proqramların ilkin çağları barədə söhbət açılır. Daha sonra Azərbaycanın müstəqillik əldə etməsi, medianın özəl sektorunun meydana gəlməsi ilə yaranan kommersiya-özəl TV kanallarında informasiya proqramlarının formalaşma prosesi izlənilir, tarixi təcrübə ümumiləşdirilir və müasir dövrün faktları təhlilə cəlb edilir.

Müstəqil Azərbaycan dövləti və onun arxitektoru Heydər Əliyevin iradəsi ilə ölkəmizdə bütövlükdə media sistemi və o cümlədən televiziya üçün münbit demokratik şərait yaranmışdır. Ümumilli liderimiz H.Əliyevin Azərbaycana yenidən qayıdışı ilə ölkədə demokratik dəyərlərin formalaşma prosesi gücləndi. Bu isə özünü daha çox media sistemində göstərirdi. Prezident H.Əliyev demokratik dəyərlərin formalaşmasında media sisteminin rolunu xüsusi qiymətləndirərək deyirdi: "Müstəqil, demokratik və hüquqi dövlət quruculuğu prosesini yaşayan Azərbaycan dövlətinin ictimai-siyasi həyatının bütün sahələrində olduğu kimi mətbuat və informasiya sahəsində də demokratiya prinsiplərinə dönmədən əməl olunur. Müstəqil Azərbaycan Respublikasının yeni Konstitusiyasında təsbit olunmuş fikir və söz azadlığı, siyasi plüralizm mətbuat və informasiya sahəsində Azərbaycan dövlətinin yeritdiyi siyasətin əsasını təşkil edir".[1] Prezidentin bu bəyanatı ölkəmizin media siyasətində bir inkişaf konsepsiyası rolunu oynadı.

Azərbaycan Prezidenti H.Əliyev informasiyanın cəmiyyətə senzurasız, dəqiq ötürülməsi üçün 1998-ci il avqustun 6-da "Azərbaycan Respublikasında söz, fikir və məlumat azadlığının təmin edilməsi sahəsində əlavə tədbirlər haqqında" fərman imzaladı və bu fərman ölkəmizdə özünü göstərən hər cür senzura qalıqlarını tamamilə aradan qaldırdı.

[1] Heydər Əliyev və mətbuat. Dörd clddə, I cild, Bakı, "Nurlar" nəşriyyatı, 2003, səh. 364, 640 səh.



İndiki halda deyə bilərik ki, Azərbaycan Milli Televiziyası- AzTV özünün informasiya siyasətini müəyyən etmiş, ümummilli informasiya proqramı formatı yaratmış və rəsmi xəbərlərə daha çox üstünlük verməklə, sensasiyadan uzaq olmaqla, bir sıra hallarda müsbət emosiyalı xəbərlərə üstünlük verməklə xüsusi məzmuna və struktura malik "Xəbərlər" proqramı ilə fəaliyyət göstərir.

Ölkədə fəaliyyət göstərən Lider TV-nin "Səda", Space TV-nin "Hər Gün", İctimai TV-nin "Carçı", Xəzər TV-nin "Xəzər-Xəbər", ATV-nin "ATV Xəbər" və bu xəbərlərdən doğan bir sıra törəmə xəbər proqramları bu gün getdikcə daha orijinal, daha müstəqil informasiya siyasəti ilə efirə çıxmaqdadırlar. Lakin bu inkişaf prosesi heç də birdənbirə baş verməmişdir. Bu günkü müstəqil Azərbycanın media sistemi və o cümlədən, bu sistemə daxil olan telekanalların informasiya proqramları bu inkişaf səviyyəsinə gəlib çatınca çətin bir yol keçmişdir.

Beləliklə, faktlar göstərir ki, Azərbaycan teleməkanının xəbərlər proqramları artıq maraqlı bir formalaşma prosesi keçmiş və getdikcə təkmilləşməkdə, tamaşaçı marağı qazanmaqdadır.

I fəslin üçüncü bölməsi **"Yenidənqurma dövrünün müstəqilliyə aparan yolunda televiziya informasiya proqramlarının xarakterik xüsusiyyətləri"** adlanır. Bu bölmədə, qısa da olsa, SSRİ-də 1985-ci ildən ictimai dövriyyəyə buraxılan yenidənqurma prosesi, bu prosesin gətirdiyi az-çox demokratik ab-hava və bütün bunların imperiyanın dağılmasında rolu, habelə Azərbaycanda müstəqillik hərəkatı, bu hərəkatda jurnalistikanın, o cümlədən televiziyada informasiya proqramlarının yeri təhlil edilir. Əlbəttə, televiziyanın yenidənqurma dövründə bir sıra yeni proqram formatları meydana çıxdı və bu proqramlarda da müstəqillik dalğası özünü göstərirdi. Lakin mütəxəssislərin də qəti rəyə gəldiyi kimi, televiziyanın bütün proqramlar sistemində informasiya buraxılışlarının daha böyük auditoriyası və daha böyük təsir qüvvəsi var. Ona görədir ki, Azərbaycanın müstəqillik uğrunda mübarizə illərində informasiya proqramlarının ayrıca rolu oldu. Bu proqramlarda əvvəlki bir sıra stereotiplər hələ də qorunub saxlansa da, xəbər süjetlərində xalq hərəkatının, mitinqlərin, antiimperiya çıxışlarının məğzini təqdim edən məqamlar üstünlük təşkil edirdi.

Dissertasiyanın II fəsli **"Azərbaycanın yeni müstəqillik dövründə milli teleməkanın informasiya proqramları"** adlanır.

II fəslin birinci bölməsində **"Azərbaycanda medianın özəl sektorunun meydana gəlməsi ilə şərtlənən yeni kanallar sistemi və onların informasiya proqramları"** təhlilə cəlb edilir. Burada Azərbaycan mətbua-

tının özəl sisteminin tarixi mərhələlərinə qısa bir ekskurs edilir, yeni müstəqillik çağında medianın özəl sahəsinə yaranan zərurət, buna dövlət qayğısı kimi məsələlər önə çəkilir. Və bu tarixi prosesin təhlili zəminində göstərilir ki, o zaman Azərbaycanda nəinki qəzet və jurnalların, habelə elektron informasiya vasitələrinin də özəl sektoru yaranmağa başladı.

Azərbaycanda özəl televiziya kanalı yaratmaq 1990-cı illərin əvvəllərinin ən çətin işlərindən biri idi. Lakin nə qədər çətinliklə olsa da, belə kanallar yaradıldı.

Dünya təcrübəsi sübut edir ki, özəl telekanalların meydana gəlməsində iki mühüm şərt başlıca rol oynayır: Bazar münasibətləri və medianın özəl sektorunun yaranması. Əslində ikinci də - yəni medianın özəl sektorunun yaranması da hər hansı ölkənin bazar münasibətləri sistemində fəaliyyət göstərməsi ilə bağlıdır. Bu mənada Azərbaycan müstəqillik əldə edən kimi bazar münasibətləri sisteminə keçdiyini dərhal elan etdi. Bu sahədə bir sıra qanunvericilik aktları formalaşdırdı. "Televiziya və Radio Yayımı haqqında" Azərbaycan Respublikasının Qanunu[1] qəbul edildi ki, bu da elektron informasiya vasitələrinin inkişafına hüquqi təkan verdi.

Beləliklə, Azərbaycan dövləti ölkədə bütövlükdə medianın, ayrılıqda TV və radionun özəl sektorunun yaranmasına xüsusi qayğı göstərmiş və bu demokratik iradənin əsası kimi ölkədə həm Respublika səviyyəsində, həm də regionlarda telekanalların meydana çıxması prosesi güclənmişdir. Əlbəttə, yaranan özəl telekanalların heç də hamısı rəqabətə dözmədi; onların bəziləri az müddət fəaliyyət göstərib sıradan çıxdılar. Lakin ANS, Space, Lider, ATV, "Xəzər" və s. kimi kanallar həm texniki təchizatını, həm də peşəkarlıq qabiliyyətini təmin edərək ölkə miqyasında yayımlanmaqla özlərinin informasiya siyasətini formalaşdırdılar.

Qeyd etmişdik ki, hər bir media qurumunda olduğu kimi, televiziyanın da fəaliyyət prinsipində, proqram setkasında informasiya ilkin yerdə durur. Özəl telekanallarda nə qədər şou proqramlara yer verilsə də, nəticədə informasiyanın əsas olduğu qənaətinə gəlirlər. Ona görə də yuxarıda adlarını çəkdiyimiz özəl telekanallar ilk növbədə informasiya proqramlarını formalaşdırdılar. ANS-də "Xəbərçi", Lider-də "Səda", Space-də "Hər gün", ATV-də "Son xəbər", Xəzər-də "Xəzər xəbər" kimi informasiya proqramları meydana çıxdı. Bu gün həmin xəbər proqramları öz fəaliyyətləri ilə həm ictimai marağa xidmət edir, həm də reklam bazarında rəqabətə girmək üçün onları getdikcə təkmilləşdirirlər.

Xüsusi vurğulamaq lazımdır ki, ANS-in "Xəbərçi" informasiya

[1] "Televiziya və Radio Yayımı haqqında" Azərbaycan Respublikasının Qanunu. "Azərbaycanda televiziya və radio yayımı (məlumat kitabçası). MTRŞ-in nəşri, Bakı, 2008, (218 səh.)



proqramı teleyaradıcılığın Qərb standartlarına meyli və cəsarətli, habelə müstəqil süjetləri ilə diqqəti bugün də cəlb etməkdədir. Məhz informasiyalarının cəsarətinə və müstəqilliyinə görə fərqlənən bu telekanal zaman-zaman təqiblərə, basqılara məruz qalmışdı. Təsadüfi deyil ki, xalqımızın ümummilli lideri H.Əliyev hələ on il bundan əvvəl bu televiziya ilə bağlı çıxışında demişdi: "ANS Azərbaycanda ilk *müstəqil* (kursiv mənimdir – R.M.) televiziya kanalıdır. "ANS"-in yaranma tarixi məlumdur. O müxtəlif formalarda hələ 1990-cı illərin əvvəllərindən fəaliyyət göstərməyə başlamışdır... Bilirəm, onların qarşısı alınmışdı, verilişləri bir neçə dəfə bağlanmışdı, qadağan edilmişdi, ancaq onu yaradanlar tutduqları yoldan çəkinməmişdilər".[1] Daha sonra H.Əliyev ANS-in informasiya proramlarının kəskinliyi, müstəqilliyi ilə bağlı belə bir fikir səsləndirmişdir: "Təbiidir ki, özəl teleşirkətlər heç də hamının xoşuna gəlmir... bəzi verilişləri elə mənim də xoşuma gəlmir. Mən bunu açıq etiraf etməliyəm.Ancaq nə etmək lazımdır? Dözmək lazımdır. Çünki bizim demokratiyanın, söz azadlığının yollarından biri də budur".[2]

Bu bölmədə "Xəzər", "ATV", "Lider", "İTV" kimi telekanalların informasiya proqramları təhlil edilir. Və bu təhlillər belə bir nəticəyə gəlməyə imkan verir ki, Azərbaycanda medianın özəl sektorunun yaranması, rəqabətin güclənməsi yeni telekanalları meydana çıxarmış və Azərbaycan teleməkanında özəl telekanalların informasiya proqramları artıq xeyli dərəcədə formalaşmış və bu inkişaf getdikcə genişlənməkdədir.

Dissertasiyanın II fəslinin ikinci bölməsi **"Yeni dönəm telejurnalistikasında AzTV-nin informasiya proqramlarının özəllikləri"** adlanır.

Məsələnin bu cür qoyuluşu ilk baxışda mübahisəli görünə bilər. Bu mübahisə belə bir sualdan doğardı: Niyə yalnız AzTV informasiya proqramları? Bunun bir neçə səbəbi var. Birincisi, Azərbaycan Dövlət Televiziyası özünün yaranma tarixi ilə xüsusi fakt kimi bütün fəaliyyət istiqamətlərindən tədqiq olunmalıdır. Çünki buna onun televiziya jurnalistikasındakı tarixi xidmətləri haqq verir. İkincisi, yarandığı ilk vaxtdan Azərbaycan Sovet Sosialist Respublikası Nazirlər Soveti yanında Dövlət Radio və Televiziya Komitəsi statusunda fəaliyyət göstərən bu qurum ölkəmizdə bütövlükdə televiziya və radio işini formalaşdıran, o cümlədən informasiya proqramlarının tarixi təcrübəsindən bəhrələnərək özünəməxsus bir məktəb yaradan müəssisə kimi zəngin təcrübəyə malikdir. Üçüncüsü, Azərbaycanın müstəqillik əldə etməsi ilə yeni yaranan özəl telesektorun hamısının – istisnasız olaraq hamısının bu təcrübədən ya-

[1] Heydər Əliyev və mətbuat. Dörd cilddə, III cild, Bakı, Nurlar, 2003, səh. 596-597, 640 s.
[2] Yenə orada, səh. 597

rarlanması faktı ortadadır. Dördüncüsü, müstəqillik aktının qəbulundan sonra bu teleradionun yarıdövlət, yarısəhmdar cəmiyyətə çevrilməsi ilə yenə də dövlətçilik, milli maraqlar, milli-mənəvi dəyərlər, azərbaycançılıq və s. kimi ideallara sadiq qalması, bütün bunları daha çox informasiya proqramlarında həyata keçirməsi AzTV-nin xəbər formatlarına ayrıca diqqət yetirməyimizi şərtləndirir. Bu yerdə ilk növbədə AzTV-nin informasiya proqramları ətrafında yaranan nəzəri fikirlərə polemik münasibət bildirilir və bu nəzəri fikirlərin bəzilərində AzTV-nin tipoloji xarakterinin nəzərə alınmaması xüsusi vurğulanır. Həqiqətən də AzTV-nin "digər kanallardan seçilməsi" faktı dəqiqdir, və fikrimizcə, bu seçilmə, hər şeydən əvvəl, onun tipoloji xarakteri, qəbul etdiyi informasiya siyasəti ilə bağlıdır. "Beynəlxalq media mühitində özünü ilkin olaraq çox yerdə, xüsusilə dövlətçilik ənənələri yeni yaranan ölkələrdə göstərmiş və göstərməkdə olan, dövlət maraqlarına xidmət edən informasiya siyasəti"[1] bəzi məqamlarda milli maraq atributu kimi çox vacib bir istiqamətdir. AzTV özünün qəbul etdiyi informasiya siyasəti ilə dövlət və xalq, hakimiyyət və xalq, dövlətin milli maraqlar sistemi kimi fundamental məsələlərə xidmət edir. Eyni ideyanı və onun gerçəkləşməsini biz bu gün nəinki dövlətçiliyini, müstəqilliyini qorumaq zorunda qalan ölkələrin, habelə bir sıra super dövlətlərin də media sistemində müşahidə etməkdəyik.

Bundan sonra ayrıca olaraq bu televiziyanın "Xəbərlər proqramı kontent analiz üslubunda təhlil edilir. AzTV-nin "Xəbərlər" proqramının bir sıra peşəkarlıq keyfiyyətlərindən də danışmaq olar. İlk növbədə bu proqramda xəbərin bütövlüyündən – hərtərəfliliyindən bəhs etməliyik. Aydındır ki, "vicdanlı təqdim olunan informasiya daha çox onun hərtərəfliliyinə borcludur. Mövzu, hadisə, xəbər o zaman bitmiş hesab olunur ki, oxucuda (tamaşaçıda – R.M.) suala yer qalmasın. Ona görə də informasiya təkcə xəbər verməyi deyil, həm də hadisənin mahiyyətini, səbəbini, onun təsir dairəsini, başqa hadisələrlə əlaqəsini və s. komponentləri özündə birləşdirməlidir".[2] "Xəbərlər"də təqdim olunan informasiyalar özünün tamaşaçı suallarını tam ödəməsi ilə diqqəti cəlb edir. Məsələn, "Xəbərlər" də Qəbələ rayonunda təzəcə istifadəyə verilən bir körpünün açılışı ilə bağlı reportajda bu yolun tikintisi zamanı, ona ayrılan maaliyə vəsaiti, körpünün keyfiyyət göstəriciləri, körpünün səmərəlilik koofisiyenti, arxitektura elementləri, dünya standartlarına uyğunluğu və s. keyfiyyətləri barədə geniş məlumat verilir.

[1] Землянова Л.М. Зарубежная коммуникативистика в преддверии информационного общества. М., МГУ, 1999, стр. 73, 301 с.
[2] Технология новостей от Интерфакса. М., «Аспект-пресс», 2011, стр. 7-8, 159 с.



Bu məlumatlar o qədər hərtərəfli olur ki, tamaşaçıda qaranlıq qalan suallar yaranmır. Bir də qeyd edirik ki, "Xəbərlər" informasiya proqramını bu keyfiyyətlər xeyli dərəcədə xüsusiləşdirir.

II fəslin üçüncü bölməsi **"Özəl telekanalların informasiya proqramlarının əsas xüsusiyyətləri"** adlanır. Dissertasiyada problemə belə bir keçid həm də tarixi inkişaf prosesinin xronologiyası ilə əsaslandırılır. Bu bölmədə Azərbaycanda fəaliyyət göstərən özəl telekanalların informasiya proqramlarının müasir fəaliyyət prinsipləri təhlilə cəlb edilir, elmi-nəzəri yanaşmaları əsaslandırmaq üçün ən yeni proqram faktlarına diqqət yetirilir. Əlbəttə, bu yerdə ANS telekanalına yenidən qayıdış da əsaslandırılır və ilk növbədə bu TV-nin informasiya proqramlarının xarakterindən söhbət açılır.

ANS-in "Xəbərçi" informasiya poqramı və ondan doğan, yuxarıda haqqında bəhs etdiyimiz törəmə proqramları öz yeni formatları, ideyaları və xəbər təqdimatları ilə xüsusi maraq doğurur. Lakin bu telekanalın bütövlükdə proqram adlarında olduğu kimi ("Günəbaxan", "Adam içində", "Passport", "Millimetr"...) xəbər proqramlarının adlarında da qeyri-ciddi, zarafatyana sərlövhələr artıqlıq edir: "Xəbərçi", "Düzbucaq", "İç xəbər", "İti bucaq", "Şou mən", "Passport"... və s. Xəbər proqramlarında ANS TV xeyli dərəcədə süni boyalara yer verir.Lakin ANS Azərbaycan teleməkanında xüsusi bir məktəb də yaratmışdır. Dissertasiyada ANS-in informasiya proqramlarına bir sıra irad tutulsa da bu proqramların xidməti xüsusi qiymətləndirilir.

Dissertasiyada Azərbaycan telemühitində Xəzər TV-nin də maraqlı informasiya proqramı ətrafında təhlillər aparılır. Xəzər TV-nin xüsusi olaraq "Xəzər-Xəbər" informasiya proqramı həm də uzun müddətdir ki, "Xəzər-xəbər.com"[1] internet saytında yer alır. Xəbər buraxılışlarında aparıcı həm də proqramın internet istifadəçilərini nəzərdə tutaraq təqdim olunan xəbərin təfərrüatlarını həmin saytdan da izləməyi məsləhət görür.

Ümumiyyətlə, son vaxtlar özəl telekanalların informasiya proqramlarında çeviklik və bunun doğurduğu süjet çoxluğu maraqlıdır. Dissertasiya bu məsələ ətrafında təhlillər aparır.

Tədqiqat işində "Lider" TV-nin də informasiya proqramları təhlil edilir və göstərilir ki, "Lider" TV-nin "Səda" informasiya proqramından dərhal sonra efirə gedən "Sədadan sonra" proqramı əsas xəbərin analitik təhlili ilə diqqəti çəkir. Həm də bu yerdə proqramın mütləq ekspert qonağı olur və bu ekspert suallara səriştəli cavab verir.Son vaxtlar isə "Lider" TV-nin xəbər buraxılışından sonra ayrıca şərhçinin təqdimatında

[1] www.xəzər-xəbər.com

günün siyasi məsələlərinin təhlilini tamaşaçıya təqdim edir.

Azad Azərbaycan (ATV) televiziyası xeyli müddət öz tipologiyasına görə daha çox əyləncə proqramlarına meyl etsə də, son vaxtlar özünün "ATV-xəbər" informasiya proqramı ilə tamaşaçı marağı doğurmaqdadır. Əvvəllər "Son xəbər" adlanan bu proqramın fəaliyyəti bəzi tədqiqatlarda müəyyən dərəcədə tədqiq edilmişdir. Lakin bu tədqiqatlar kontent - analizdən çox nəzəri problemlərlə bağlı olduğu üçün biz buna yenidən qayıtmalı oluruq.

"ATV - xəbər" informasiya proqramı "Xəbərçi" (ANS) və "Xəzər -xəbər"dən ("Xəzər") fərqli olaraq hadisələrə daha sakit tonda yanaşır və ictimai maraq kəsb edən problemləri aid olduğu təşkilatlara xatırlatmaq missiyası ilə fəaliyyət göstərir. Doğrudur, bu proqram da yeri gəldikcə kriminal xəbərlərə yer ayırır, lakin bu tipli xəbərlər haysız - küysüz şəkildə təqdim olunur.

Azərbaycan teleməkanında öz yeri olan "Space" televiziyası özünün informasiya siyasətini də müəyyənləşdirib. Bu siyasətdə Azərbaycan tamaşaçısının maraq dairəsi, prioritet dəqiqliyi, ictimai marağa xidmət, sosial məsuliyyət, vətəndaşlıq mövqeyi kimi maraqlar ciddi nəzərə çarpır.

Göründüyü kimi, Azərbaycanda milli maraqlara, ictimai marağa xidmət edən özəl televiziya sistemi və bu sistemin informasiya siyasəti formalaşmaqdadır.

Deyilənlərdən belə nəticəyə gəlmək olar ki, Azərbaycan teleməkanmda sayca üstünlük təşkil edən özəl telekanalların hər biri artıq özünün informasiya siyasətini müəyyən etmiş və bu sahədə dünya təcrübəsinə söykənərək fəaliyyət göstərməkdədir.

Dissertesiyanın sonuncu - III fəsli **"Azərbaycan teleməkanında informasiya proqramlarının peşəkarlıq məsələləri"** adlanır.

Azərbaycan teleməkanında informasiya proqramlarının yeni peşəkarlıq keyfiyyətləri formalaşmışdır ki, bunun müxtəlif istiqamətlərdən tədqiqi səmərəli olardı.

Bu istiqamətdə araşdırmanın tələbinə görə fəslin birinci bölməsində **"Törəmə informasiya proqramları peşəkarlağın göstəricisi"** kimi maraqlı bir problem təhlilə cəlb edilir.

Azərbaycanda demokratik mediasistem 1980-ci illərin sonundan yaranmış, 1990-cı illərin əvvəllərindən isə ümummilli liderimiz H.Əliyevin hakimiyyətə gəlişi ilə öz inkişafında yeni vüsət almışdır. Bu kanallar sistemində ölkədə ilk yaranan "ANS" özəl teleradiosu informasiya proqramlarının təqdiminə görə fərqlənir.

"ANS"-in xəbər proqramları ziddiyyətli, vacib ictimai problemi işıqlandırarkən xeyli dərəcədə qərəzsizlik prinsipini qoruyur. Nəzəriyyəçilər də məsləhət görürlər ki, "yayım təşkilatları qərəzsizlik doktrinasının tarazlıq tələbini yerinə yetirmək üçün vasitələr axtarıb tapmağa borcludurlar".[1] ANS belə vasitələr axtarışında olur və çox zaman öz məqsədinə çatır. Təsadüfi deyil ki, ümummilli liderimiz Heydər Əliyev 1998-ci il dekabrın 7-də ANS televiziyasının yaradıcı kollektivi ilə görüşündə bu kanalın xidmətlərindən, onun informasiyalarının qiymətini vermişdir.

Apardığımız təhlillər çərçivəsində ANS-in "Növbətçi", "Düzbucaq", "İç xəbər" və s. kimi törəmə informasiya proqramları tədqiq edilir. Digər TV kanallarındakı törəmə informasiya proqramları barədə də həm nəzəri, həm də praktik təhlillərə yer ayrılır. Özəl telekanqalların informasiya proqramlarına diqqət etdikdə hiss olunur ki, "Lider" televiziyasında tamaşaçı auditoriyasının müxtəlif yaş qrupları da nəzərə alınır.Artıq heç kəsə sirr deyil ki, televiziya kanalının simasını informasiya buraxılışları müəyyənləşdirir. Bu baxımdan "Lider" televiziyası informasiya buraxılışına xüsusi diqqət yetirir və bir gün ərzində bir neçə dəfə tamaşaçıları respublikamızda, dünyada baş verən hadisələrlə tanış edir. Bu tanışlıqda "Sədadan sonra" törəmə informasiya proqramı da mühüm rol oynayır.

Lider TV əsas informasiya proqramı hər gün 19:00-da gün ərzində baş vermiş xəbərləri yekunlaşdırır. Bazar günləri isə "Səda-həftə" informasiya buraxılışı ilə həftə ərzində baş vermiş əsas hadisələri ümumiləşdirərək bir daha tamaşaçıya təqdim edilir.

"Lider" kanalının xəbər proqramından biri də "Səda+"dur.Bu veriliş həftənin 6 günü, "Səda" proqramının ana buraxılışından dərhal sonra efirə gedir və günün ən mühüm hadisələrinin studiyada qonaqla müzakirəsi xarakterini daşıyır.

Azərbaycan televiziya məkanında xüsusi yeri olan "Lider" telekanalının "Səda" xəbərlər proqramını tamamlayan "Sədadan sonra" törəmə xəbər proqramı da özünün maraqlı cəhətləri ilə yadda qalır. "Sədadan sonra" kimi seçilmiş bu adın özü də çox uğurludur və onun yaradıcı heyəti ana xəbərdə prioritet hesab edilən olayları müzakirə müstəvisinə çıxarır. Proqramda hər hansı bir hadisəyə ekspert münasibəti əsas yer tutur. Törəmə proqram, adətən, xeyli dərəcədə siyasi mövzular qoyur və Azərbayacan dövlətçiliyinə xidməti ilə yadda qalır.

"Lider" TV-nin "Sitatın sonu" formatı da "Səda" proqramından dərhal sonra efirə çıxır və çox müxtəlif siyasi mövzuları gündəmə gətirir. Təəssüf ki, "Sitatın sonu" bəzi məqamlarda jurnalistin də siyasiləşməsi ilə tamaşaçını narazı salır.

Azərbaycan teleməkanında artıq 8 illik fəaliyyətini qeyd etmiş

[1] Голядкин Н.А. ТВ информация в США. М., МГУ, 1999, стр. 220, (193 стр.)

İctimai Televiziya və Radio Yayımları Şirkətinin "Carçı" informasiya proqramı hər gün bir neçə dəfə efirə çıxır. Bu xəbər proqramı ətrafında müxtəlif fikirlər var. Məsələn, TV nəzəriyyəçisi Elçin Əlibəylinin fikrincə, "İctimai Televiziyanın xəbər buraxılışları peşəkar qüsurlarla zəngindir və informasiya onun təqdimat prinsiplərinə qətiyyən uyğun deyil".[1] Digər bir müəllifin fikrincə, "Carçı" xəbərlər proqramı öz sakit, haysız-küysüz üslubu, hadisələrə qərəzsiz, tərəfsiz yanaşması ilə diqqəti cəlb edir".[2] Bu müxtəlif fikirlər fonunda biz də qeyd etməliyik ki, "Carçı" informasiya proqramı daha çox daxili xəbərlərə üstünlük verməklə ölkədəki əsas hadisəni özündən sonrakı "Aktual" adlı törəmə proqramda təhlil obyektinə çevirir. Bu proqramda seçkilərlə bağlı, Azərbaycan dövlətinin taleyüklü problemləri ilə bağlı, ictimai, siyasi və s. mövzular efirə çıxarılır.

Bundan başqa İTV-də "Carçı"dan dərhal sonra efirə çıxan "İqtisadiyyat xəbərləri"də törəmə xəbər proqramı kimi maraq doğurur.

Bütün bunlar göstərir ki, Azərbaycan teleməkanında törəmə informasiya proqramları artıq bir teleformat kimi qəbul olunmuş və getdikcə inkişaf etməkdədir.

TV informasiya proqramlarının peşəkarlıq problemlərini təhlilə cəlb edən III fəslin ikinci bölməsi **"Azərbaycan telemühitində informasiya proqramlarında özünü göstərən janr sistemi"** adlanır.

Azərbaycan telejurnalistikasında informasiya proqramları artıq öz formatını və janrını çoxdan müəyyən etmiş, həm milli ənənələrdən bəhrələnmək, həm də Qərb təcrübəsindən öyrənmək baxımından təkmilləşmiş, müxtəlif janrlardan istifadə ilə günün xəbər mənzərəsini təqdim etməyi, bir qayda olaraq, peşəkarlıqla bacarırlar. Tarixən ölkədə öz ənənəsi və böyük təcrübəsi olan AzTV-nin (Azərbaycan televiziyası) «Xəbərlər», artıq son 6-7 ildə cəmiyyətdə öz mövqeyini formalaşdırmış İTV (İctimai televiziya) «Carçı», Azərbaycanda özəl telekanalların bünövrəsini qoymuş ANS (Azerbaijan News Servis) «Xəbərçi», Lider «Səda», Spase «Hər gün», ATV «Son xəbər», Xəzər TV «Xəzər-xəbər» adları altında informasiya proqramları ilə efirə çıxırlar. AzTV daha çox rəsmi informasiyalara yer verir və bununla da informasiyalı janrların xronika, hesabat, geniş reportaj formatlarına müraciət edir.

İctimai Televiziya və Radio Yayımları Şirkəti yaranma tarixi etibarı ilə xeyli dərəcədə cavan olsa da, onun «Carçı» informasiya proqramı artıq sınaqdan çıxmış, qərəzsiz, tərəfsiz, dəqiq və ən əsası, geniş ictimai maraq kəsb edən xəbərləri ilə tamaşaçı rəğbəti qazanmışdır.

---

[1] Əlibəyli E. Televiziya nəzəriyyəsinin əsasları. Bakı, Elm, 2011, səh. 175, 412 s.

[2] Qafarlı Ə. Televiziya jurnalistikasının əsasları. Bakı, Çənlibel, 2009, səh. 58, 160 s



Xəbərləri həyat hadisələrindən alan televiziyada informasiyanın həm mövzu, həm də janr etibarilə çeşidliyi var. Türkiyənin müasir jurnalistika nəzəriyyəçilərindən olan A.Ridvan Bülbülə görə «xəbəri duymaq və onu hazırlamaq üçün jurnalistə təhsillə bağlı bir Tanrı vergisi də gərəkdir».[1] Nəzəriyyəçinin fikrinə görə, xəbərlər əsas, adi, qarışıq, siyasi, özəl, ciddi, sensasiyon, isti və s. ola bilər.[2] Xəbərlərin janrı seçilərkən onun beş əsas dəyəri nəzərə alınır: zaman, tamaşaçıya yaxınlıq, nəticə, əhəmiyyəti, ictimai maraq kəsb etməsi. Bu dəyərlərin daşıyıcısı olan xəbərlər janr seçimi ilə təqdim olunur. Azərbaycan teleməkanınıda informasiyaya uyğun janrlar xüsusi diqqət mərkəzində olur. Bu janlar sistemində reportajın ayrıca yeri var. Çünki «öz təbiətinə görə reportaj televiziyaya daha uyğun bir janrdır». [3]Reportaj janrı tamaşaçıda hadisə haqqında tam təsəvvür yaradır. Reportajda müəllif monoloqu əsas yer tutur. Telereportajda daha çox jurnalistin özü danışır.[4]

Bütövlükdə, telekanallarımız informasiya təqdimatında yeni forma və üsulların tətbiqinə nail olur, öz yaradıcılıqlarında beynəlxalq praktikaya uğurlu müraciətləri ilə yeni janr axtarışlarını davam etdirirlər.

III fəslin üçüncü bölməsi **"Televiziyanın informasiya proqramlarında jurnalistin yaradıcılıq prinsipləri"** adlanır.

Telejurnalistikanın özünəməxsus xüsusiyyətlərindən biri onun janrları ilə əlaqədardır. Janr ona görə televiziya üçün də xüsusi keyfiyyət kəsb edir ki, onun müxtəlifliyi televiziyada verilişlərin, proqramların özünəməxsus yaradıcılıq formatına ciddi təsir göstərir. Janr televiziyada ideyanın, layihənin gerçəkləşdirilməsi prosesində mühüm element kimi çıxış edir. Qeyd edək ki, son vaxtlar qəzet jurnalistikasında janra qarşı yaranan laqeydlik telejurnalistikada hiss olunmur. Hətta televiziya intensiv olaraq qəzet, radio, kino janrlarının televariantlarını yaratmaqdadır. "Bu intensiv proses nəticəsində televiziyanın özünəməxsus yeni janrları ortaya çıxmaqdadır"[5] fikri ilə razılaşmaq lazım gəlir.

Beynəlxalq jurnalistikada informasiya və jurnalistin digər materialları təkcə xəbərləndirmək, məlumatlandırmaq deyil, habelə insanı, cəmiyyəti bu informasiya ilə istiqamətləndirmək, ictimai rəy yaratmaq

---

[1] Ridvan Bülbül A. Genel Qazeteçilik Bilgileri. Konya, Novel Yayın LTD.STİ. 2000, səh. 100, 296 s.

[2] Yenə orada, səh. 105-111

[3]Майдурова О.Ф Информационные жанры в новостных телепрограммах: актуальные тенденции. СПб, Изд. Михайлова В.А., 2011, стр. 18, 78 с.

[4] Солганик Г.Я. Стиль репортажа. М., МГУ, 1996, стр. 45, 220 с.

[5] Ермилов А. Профессиональные советы тележурналисту. М., Аспект-Пресс, 2010, стр. 49, 178 с.

rolunda da çıxış edir. Jurnalist obyektiv ictimai rəy formalaşdırmağa nail olmaq üçün məsuliyyət daşıyır. Xüsusilə sosial problemlərin yayımında diqqətli olmaq vacibdir. Jurnalist verdiyi informasiyaya görə təkcə naşirin qarşısında deyil, habelə cəmiyyət qarşısında da məsuliyyət daşıyır. Məsələn, 2000-ci ilin may ayında Ermənistan jurnalistləri erməni alimlərinin guya Spidin müalicəsilə bağlı dərman əldə etdiyi kimi sensasiyalı bir xəbəri dünya mediasına ötürdülər. Heç bir şübhə yeri qoymadan dünya ictimaiyyətinin maraq dairəsində olan bir problemin həlli barədə yalan informasiya rus mətbuatında və telekanallarında sensasiya təbirilə yayımlandı. Lakin az bir müddətdə ABŞ alimləri bu informasiyanın blef - yalan, hay-küy olduğunu aşkar etdilər. Həmin informasiyanı qeyd-şərtsiz, mütləq həqiqət kimi mediaya ötürən jurnalistlər dünya ictimaiyyəti qarşısında daha çox məsuliyyət daşıyırlar. Xüsusi qeyd edək ki, Azərbaycan telekanallarının bir çoxu bu informasiyaya şübhə ilə yanaşmaqda tamamilə düzgün mövqe tutmuşdur.

Prioritet mövzunu müəyyən etmək beynəlxalq jurnalistikada vacib yaradıcılıq prinsipi hesab olunur. Prioritet mövzu jurnalistikada əsas mövzu, başlıca maraq kəsb edən mövzu kimi qəbul olunur. Tədqiqatda bunun peşəkarlıq cəhətləri izah edilir.

Telejurnalistikanın vicdanlılıq prinsipi – hər kəsin peşə fəaliyyətinə vicdanla yanaşmasını tələb edir. Tədqiqatda bu barədə söhbət açılır.

Xüsusi qeyd edək ki, teleinformasiyanın dəqiq, qərəzsiz, vicdanlı və s. beynəlxalq yaradıcılıq prinsiplərini Azərbaycan teleməkanına ilk dəfə ANS gətirmiş və bu prinsipləri özünün yaradıcılıq şüarına çevirmişdir. Hətta Azərbaycanda yaranan bu telekanal həmin prinsipləri Rusiyadakı ən populyar telekanallardan da əvvəl tətbiq etmişdir. Dissertasiyada bunun səbəbi də göstərilir və qeyd edilir ki, Rusiya televiziyaları müstəqilliyin ilk illərində hələ də sovet ideoloji televiziyasının nostaljisi ilə yaşayırdı.

Yuxarıda bəhs etdiyimiz yaradıcılıq prinsipləri bir çox hallarda İctimai TV-də, «Xəzər-xəbər»də, ATV-də də gözlənilir. ATV-nin «ATV dünya», «ATV olay» kimi xəbər proqramları çox hallar da dəqiq, qərəzsiz, balanslı prinsiplərlə efirə çıxmaqdadır.

III fəslin dördüncü bölməsi **“Azərbaycan teleməkanında informasiya proqramlarının dili və üslubu”** adlanır. Burada TV informasiya proqramlarına bu sahədə verilən tələblər və onların necə yerinə yetirilməsi faktları nəzərdən keçirilir.

Dissertasiyanın **”Nəticə”** hissəsində aparılan araşdırmaya yekun vurulur və müasir Azərbaycan telekanallarındakı informasiya proqramlarının fəaliyyəti on mühüm müddəa ilə ümumiləşdirilir. Eləcə də informasiya proqramlarında özünü göstərən çatışmazlıqlarla bağlı bir sıra tövsiyələr verilir.



**Dissertasiyanın mövzusu üzrə dərc olunmuş elmi əsərlərin siyahısı**


1. Azərbaycan telemühitində informasiya proqramları və onların janr sistemi. “Jurnalistikanın nəzəri konsepsiyaları və mətbuat təcrübəsi”. I Beynəlxalq elmi-nəzəri konfransın materialları. 22 may 2012-ci il. səh. 304-315 (440 səh.)
2. Azərbaycanda televiziya informasiya proqramlarının formalaşma mərhələləri. “Kitabşünaslıq və nəşriyyat işi” jurnalı. Bakı, 2012, №2, səh.49-55
3. Azərbaycan nəzəri ədəbiyyatında televiziyanın ilkin çağlarının informasiya proqramlarına elmi münasibət. “Bakı Universitetinin xəbərləriəri”. Bakı, 2013, №1, səh. 181-188
4. Törəmə informasiya proqramları peşəkarlığın göstəricisi kimi. “Kitabşünaslıq və nəşriyyat işi” jurnalı. Bakı, 2014, №2, səh.78-85
5. Характеристика производных программ новостей в сфере телевидения Азербайджана. Вестник Московского Университета. Серия «Журналистика». Москва, 2014, стр. 172-181
6. Система новых телеканалов, овусловленная появлением частного сектора медиа в Азервайджане. Вестник Пятигорского Государственного Лингвистического Университета. Пятигорск, 2014, стр. 29-34
7. Azərbaycan teleməkanında informasiya proqramlarının dil və üslubu. “Elmi xəbərlər” jurnalı. Azərbaycan Dillər Universiteti. Bakı, 2015, №4, səh. 119-128

## Творческие особенности информационных программ в Азербайджанском телепространстве
## РЕЗЮМЕ

Диссертационная работа посвящена такой актуальной теме как «Творческие особенности информационных программ в Азербайджанском телепространстве». Во вводной части работы обосновывается актуальность темы, излагаются цели и задачи исследования, уровень изучения проблемы, научная новизна, объект и методологические основы исследования, теоретическая и практическая значимость.

1-я глава исследования называется «Информационные программы телевизионной деятельности в Азербайджане от первоначальной стадии до периода независимости». Глава выделяется на 3 раздела. В первом разделе анализируется научное отношение к информационным программам начальных периодов телевидения в Азербайджанской теоретической литературе», во втором разделе «Стадии формирования информационных программ телевидения в Азербайджане», в третьем разделе «Характерные особенности информационных программ телевидения на пути, ведущей к независимости в период перестройки».

2-я глава диссертации под названием «Информационные программы национального телепространства в новом периоде независимости Азербайджана» исследуется в трех разделах. В первом разделе главы исследование ведется относительно «Системы новых телеканалов, обусловленной появлением частного сектора медиа в Азербайджане, и их информационных программах», во 2-м разделе об «Особенностях информационных программ Аз.ТВ в тележурналистике нового периода», а в третьем разделе об «Основных особенностей информационных программ частных телеканалов».

3-я глава диссертации под названием «Вопросы о профессиональности информационных программ в Азербайджанском телепространстве в отличие от предыдущих приводится в четырех разделах. В первом разделе главы исследуется «Производные информационные программы как новый показатель профессионализма», во втором разделе «Жанровая система, проявляющаяся в информационных программах Азербайджанской телесреды», в третьем разделе «Творческие принципы журналиста в информационных программах телевидения», наконец в четвертом разделе «Язык и стиль информационных программ в Азербайджанском телепространстве».

В заключительной части подытоживается проведенное исследование, проводится научно-теоретическое обобщение.



## The creative features of news programs in Azerbaijan TV space
## RESUME

Thesis is devoted to important topic as "The creative features of the television news program". The urgency of the topic is justified at the Introduction, the research goals and objectives, the level of study of the problem, scientific innovation of research, object and methodological foundations, theoretical and practical importance of the issues are commented.

The first Chapter of the research is named "The news program of Azerbaijani TV activities from its initial period till pre-independence period". The Chapter is divided in 3 sections. The first section analyses the "The scientific attitude to news programs of early stages of TV in theory literature of Azerbaijan", the second section "The stages of the formation of television news programs in Azerbaijan", the third section "The characteristic features of television news programs at reconstruction period leading to independence".

The Chapter II of the thesis "The news programs of TV space during new independent period of Azerbaijan" is studied in three sections. The first section of the chapter "The new TV system and its news programs, which is conditioned with formation of private sector of media of Azerbaijan" , the second section "The peculiarities of information programs of AZ TV in new era TV journalism", while the third section dedicated to" The main features of the private TV news programs".

The Chapter III of thesis, "The professional issues of news programs in Azerbaijan TV" as opposed compared to previous one is presented in four-section. In the first section of the Chapter "The creative information programs as new indicator of professionalism", the second section "The genre system showed itself in news programs of Azerbaijani TV space", in the third section, "The creative principles of journalist in the news program of TV" and, finally, the fourth section covers "The language and style of the television news program in Azerbaijan".

At "Conclusion" section the study, conducted is summarized and the scientific theoretical generalization is made.

Kağız formatı: 60x84   1/16
Tiraj: 100
“*Bakı Universiteti*” nəşriyyatı
Bakı – 370073, Z.Xəlilov küçəsi 23,
BDU nəşriyyatının mətbəəsi



**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ
АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ
БАКИНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ**

*На правах рукописи*

**Рена Алим кызы Мирзоева**

# Творческие особенности информационных программ в Азербайджанском телепространстве

**5701.20- Журналистика**

# А В Т О Р Е Ф Е Р А Т

**Диссертация на соискание ученой степени доктор философии по филологии**

**ВАКУ-2015**